# Türkiyədə 80 illik yubiley tədbirləri

## TÜBA - Ankara Universiteti və tərəfdaş qurumlar












**Türkiyənin Ankara şəhərində Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi münasibəti ilə təntənəli tədbir keçirilib.**

Tədbirdən əvvəl AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA-nın və Türkiyə Elmlər Akademiyasının, eləcə də Azərbaycanın Ankaradakı səfirliyinin nümayəndələri Ankarada Heydər Əliyev Parkını ziyarət ediblər. Azərbaycan dövlətçiliyinin memarı, Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüblər.

Ankara Universitetinin rektorluq binasında keçirilən təntənəli açılış mərasimində Türkiyə Elmlər Akademiyasının (TÜBA) təşəbbüsü və Ankara Universitetinin dəstəyi ilə təşkil edilən tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin rəhbərlik etdiyi heyətlə yanaşı, müxtəlif beynəlxalq və ölkə elmi qurum və təşkilatların, ali təhsil ocaqlarının nümayəndələri, diplomatlar, elm xadimləri iştirak ediblər.

Açılış mərasimində **Ankara Universitetinin rektoru professor Necdet Univar** rəhbərlik etdiyi təhsil qurumunda vaxtı ilə Ümummilli Lider Heydər Əliyevə fəxri doktor adının verildiyini xatırladıb.

İki qardaş ölkə arasındakı əməkdaşlığın elm və təhsil sahəsində də uğurla davam etdiyini vurğulayan rektor, AMEA-nın rəhbərliyinə bu prosesə verdiyi töhfəyə görə təşəkkürünü bildirib.

“Elm və təhsil sahələrində əməkdaşlığımız “Bir millət, iki dövlət” kəlamı prizmasından uğurla davam edir. Liderlərimiz İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın uğurlu siyasətləri yolumuza işıq tutur. Ölkələrimizə daim bir və yüksəkdə olmasını arzu edirəm”, - deyən N.Univar, Azərbaycanla uğurlu əməkdaşlığın bir nümunəsi kimi ikili diplom proqramını da göstərib və 80 illiyi münasibətilə AMEA-nın rəhbərliyini və kollektivini təbrik edib.

Sonra **AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli** “Azərbaycan Milli Elmlər Akademiyası: 80 il elmin keşiyində” mövzusunda məruzə ilə çıxış edib. AMEA rəhbəri çıxışında bildirib ki, Azərbaycan Milli Elmlər Akademiyası yarandığı vaxtdan etibarən mühüm elmi nailiyyətlərlə zəngin yol keçərək, respublikamızın elmi-intellektual potensialını milli sərvətə çevirən mərkəz kimi tanınıb və bu gün müasir dövrün reallıqlarına, ölkə başçısının çağırışlarına uyğun olaraq özünün çoxistiqamətli fəaliyyəti ilə yeniləşmə və islahatlar mərhələsini mühüm elmi nəticələrlə davam etdirir.

“Bugünkü tədbir Azərbaycan Prezidenti İlham Əliyevnin “Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında” Sərəncamının icrası kontekstində böyük əhəmiyyətə malikdir. AMEA-nın tarixində ilk dəfədir ki, Akademiyanın yubileyi ölkədən kənarda, qardaş Türkiyədə qeyd olunur. Bu əhəmiyyətli addım qardaşlığımızın və həmrəyliyimizin möhkəmlənməsinə uğurla xidmət edir. Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə ifadə etdiyi “Bir millət, iki dövlət” ifadəsi Azərbaycan və Türkiyənin birlikdə dünyaya nümayiş etdirdiyi birlik nümunəsinin, Türk dünyası ölkələrinin sarsılmaz birliyinin sübutudur”, - deyə akademik vurğulayıb.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan elminə diqqət və qayğısından danışan akademik İsa Həbibbəyli, “Azərbaycan elminin intibahı dövrü məhz Ulu Öndərin adı və fəaliyyəti ilə üzvi surətdə bağlıdır. Heydər Əliyevin siyasəti həm də Azərbaycan-Türkiyə qardaşlığına xidmət edib”, - deyə bildirib.

Azərbaycan Milli Elmlər Akademiyasının ötən müddət ərzində elm sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsində fəal iştirak etdiyini söyləyən AMEA rəhbəri humanitar və ictimai elmlər sahəsində aparılan tədqiqatlarla cəmiyyətin yeni biliklərə yiyələnməsi və elmi-mədəni səviyyəsinin yüksəldilməsi işinə də töhfə verdiklərini ifadə edib.

AMEA-nın prezidenti vurğulayıb ki, Azərbaycan və Türkiyə yalnız daxili siyasətdə və ikitərəfli münasibətlərdə deyil, həmçinin beynəlxalq arenada da birlik və həmrəylik nümayiş etdirir.

Akademik İsa Həbibbəyli tədbirin Türkiyənin elm və ali təhsil qurumları ilə əməkdaşlığın daha da möhkəmləndirilməsinə, yeni birgə layihələrin formalaşmasına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Prezident İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi “Bizim başqa ailəmiz yoxdur, ailəmiz Türk dünyasıdır” fikrinə istinad edən alim Azərbaycanın zəngin ənənəyə malik türkologiya elminin və Türk dünyası ilə əlaqələrin inkişafında yeni mərhələyə qədəm qoyduğunu bildirib.

**Türkiyə Elmlər Akademiyasının prezidenti professor Müzəffər Şəkər** çıxışında Türkiyə-Azərbaycanın sarsılmaz birliyinə diqqət çəkərək son illərdə TÜBA ilə AMEA arasında elmi əməkdaşlığın daha da genişləndirildiyini bildirib. İki qardaş ölkənin elmi qurumları arasında atılmış möhkəm təməllərin əhəmiyyətini bildirən Müzəffər Şəkər birgə fəaliyyətin mühüm elmi nəticələrə gətirib çıxaracağına əminliyini fadə edib.

**TÜRKSOY-un Baş katibi Sultan Raev, Türkiyənin Azərbaycandakı keçmiş səfiri professor Cahit Bağcı və Azərbaycan Respublikasının Ankaradakı səfirliyinin birinci katibi Aygün Qocayeva** çıxış edərək iki ölkə arasında bütün sahələrdə olduğu kimi elm və təhsil sahəsində də əməkdaşlığın əhəmiyyətindən danışıblar. Bütün türk dünyasının elmi qurum və təşkilatları arasında qarşılıqlı əlaqələrin daha da genişləndirildiyini vurğulayaraq AMEA-nın 80 illiyi münasibətilə təbriklərini çatdırıblar.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin “TÜBA-nın fəxri üzvü” seçildiyi elan olunub. Fəxri üzvlük diplomunu akademik İsa Həbibbəyliyə TÜBA-nın prezidenti, professor Müzəffər Şəkər təqdim edib.

Təntənəli açılış mərasimindən sonra “Azərbaycanın elm məbədi” sənədli filmi nümayiş olunub. Sənədli film iştirakçılar tərəfindən maraqla izlənilib.

Sonra tədbir panel müzakirələri ilə davam edib.

**Türkiyə Xarici İşlər Nazirliyinin Elm və texnologiya siyasətləri şöbəsinin müdiri professor Hami Aksoyun** moderatorluğu ilə keçirilən birinci paneldə **Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun sədri professor Dərya Örs, Türk Tarix Qurumunun rəhbəri, professor Yüksel Özgen, Türk Dil Qurumunun rəhbəri, professor Osman Mert, görkəmli türkoloq alim, professor Ahmet Bican Ercilasunun** məruzələrində Azərbaycan-Türkiyə əlaqələrinin tarixi ənənələrindən və AMEA-nın bu sahədəki rolundan bəhs ediblər.

**İstanbul Nişantaşı Universitetinin rektoru, professor Ayşəgül Komsuoğlunun** moderatoruluğu ilə keçirilən ikinci paneldə **Orta Doğu Universitetinin professoru Ayça Ergün, Prezident yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, İqtisadi Əməkdaşlıq Təşkilatı Tədris İnstitutunun direktoru, Ankara Sosial Elmlər Universitetinin professoru Mehmet Akif Kireççi, Ankara Universitetinin müəllimi, professor Mehmet Rıza Heyet** də məruzələrlə çıxış ediblər. Məruzə, çıxış və müzakirələrdə Türk dünyası ilə ortaq əlifba, ortaq gələcək, elmi birlik mövzularına xüsusi diqqət çəkilərək Azərbaycan Milli Elmlər Akademiyası ilə əməkdaşlığın perspektivləri haqqında danışılıb. AMEA-nın 80 illiyinin qardaş Türkiyədə qeyd edilməsinin tarixi əhəmiyyətə malik olduğunu xüsusi vurğulayıblar.

Sonda qarşılıqlı olaraq hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətində **AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyev** və **AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ağahüseyn Şükürov** da təmsil olunublar.